**Xədicə HEYDƏROVA**
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Azərbaycan dili tarixi şöbəsinin müdiri
filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: heyderova73@mail.ru
https://orcid.org/0000-0002-1148-8326

# NƏSİMİ POEZİYASINDA RƏQƏMLƏRİN METAFİZİK VƏ KOSMİK DİLİ

**Xülasə**

Bu məqalədə İmadəddin Nəsimi yaradıcılığında rəqəmlərin metafizik, kosmik və hürufi mənalandırılması araşdırılır. Şairin poeziyasında ədədlər yalnız riyazi göstəricilər deyil, həm də dərin ezoterik, astronomik, sufi və antropoloji rəmzlər kimi çıxış edir. Məqalədə ədədlərin Nəsimi poetikasındakı çoxqatlı semantik funksiyaları Qurani-Kərim ayələri, klassik İslam elmləri və hürufi doktrina kontekstində təhlil olunur. Müsahibədə 4, 6, 12, 18, 28, 32, 48, 84, 360, 366 və digər rəqəmlərin rəmzi mənaları araşdırılır. Müəllif bu ədədlərin insanın anatomik strukturu, kainatın yaradılış mərhələləri və ilahi hikmətin təcəllaları ilə əlaqəli olduğunu göstərir. Məsələn, 28 ərəb və 32 fars hərfi hürufi sistemin əsasını təşkil edir; 7 və 12 rəqəmləri səyri-sülukun mərhələləri və göy sferaları ilə bağlıdır; 18 hərf 18 min aləmə, 360 dərəcə isə fələyin çevrəsinə işarədir. Musiqi terminləri kimi 6 avaz, 12 pərdə, 24 şöbə kimi quruluşlar isə Səfiyəddin Urməvinin təsnifatına əsaslanır. Məqalədə həmçinin müqəttəat hərflərin əbcəd dəyərləri, onların poetik istifadəsi və insan üzündəki xəttlərlə analogiyası analiz edilir. Nəticədə sübut olunur ki, Nəsimi ədədləri ilahi rəmzlərin daşıyıcısına çevirərək, poetikasında ezoterik bir semantik sistem yaratmışdır. Bu yanaşma onu yalnız hürufi-sufi şair deyil, həm də riyazi-mənəvi simvolların ustası kimi təqdim edir.

**Açar sözlər:** Nəsimi, rəqəmlər, hürufilik, ezoterika, simvolizm.

**UOT:**80
**DOI:** https://doi.org/ 10.54414/KEWP2716

## Giriş

İmadəddin Nəsimi yaradıcılığı yalnız poetik zənginliklə deyil, həm də dərin fəlsəfi və ezoterik qatları ilə seçilir. Onun şeirlərində tez-tez rast gəlinən rəqəm və ədədlər təkcə riyazi göstəricilər deyil, həm də coğrafi, metafizik və kosmoqonik simvollar kimi çıxış edir. Bu məqalədə Nəsimi poeziyasında işlənən rəqəmlərin çoxqatlı rəmzi semantikası araşdırılır və onların hürufi, sufi, astronomik və antropoloji anlamları sistemli şəkildə təhlil olunur. Mətn boyunca rəqəmlərin həm Quran və klassik İslam elmləri, həm də hürufi təlim kontekstində daşıdığı ezoterik məna qatları şairin poetikasında rəmzlərin necə mürəkkəb bir semantik struktur yaratdığını nümayiş etdirir.Nəsimi yaradıcılığında rəqəm və ədədlər riyazi, coğrafi, metafizik və kosmoqonik anlamlarda rəmzi semantikalara malikdir.

*Üç otuz on – (30+30+30+10 = 100).* Bu ifadə Dədə Qorqudda rast gəlinir: *"Gerçəklərin üç otuz on yaşını doldursa yeg! On otuz on yaşınız dolsun!"* [1, s. D4]. *"Üç otuz on yaşı olsun, on iki yaşındadır"* [2, I, s. 189].

**Altı** rəqəmi Nəsiminin dilində üç anlamda işlənir: riyazi rəqəm kimi, musiqi termini kimi və kosmoqonik termin kimi.

*Altı avaz, on iki pərdə, yigirmi dörd şüəb.* Hesab edirik ki, şair bi terminləri XIII əsr İslam musiqi nəzəriyyəsinin ən nüfuzlu və sistemli traktatlarından birini yazmış Səfiyəddin Urməvinin "Kitab əl-ədvar" əsərindən götürmüşdür. Bu əsər Şərq musiqisində ilk dəfə olaraq 12 pərdə və ya dövr, 6 avaz, muğamın 24

şöbəsi bölgüsü sistemini elmi əsaslarla təqdim etmişdir. Kitabda musiqinin kosmik və ilahi nizamla bağlılığı da vurğulanır. Bax: [3, s. 42–47].

*“Altı avaz, on iki pərdə, yigirmi dörd şüəb*
*Həm rübabü ərğənunam, çəng ilə tənburuyam”* [4, II, s. 113]

Kosmoqonik termin kimi 6 (altı) cəhət və dünyanın 6 gündə yaradılması mənası əsas görülür.

*“Altı dördün tasına düşdü könül*
*Vəhdətin dəryasına düşdü könül”* [4, II, s. 287]

*Altı dördün tası* – insanın fiziki (şəkli) varlığı, yəni 6 istiqamət (şimal, cənub, şərq, qərb, yuxarı, aşağı) nəzərdə tutulur. Bu, insanın zahiri mövcudluğunu təmsil edir. *Dörd* – ünsürlər, yəni torpaq, su, hava, od klassik fəlsəfədə təbiətin və bədənin maddələridir.

*“Üç yüz altmış gündürür dövranımız,*
*Altı gəz altmış olur, ey canımız”* [4, II, s. 276]

*“Günəşin mənzili 360 dərəcəyə bərabərdir. 6 dəfə 28 və 32 – 360-a bərabərdir”* [5, s. 540]. 28 ərəb hərflərinin, 32 isə fars hərflərinin sayıdır. Bu izahı Nəsiminin aşağıdakı beytində görəbilirik: *Altı gəz altmış olur ey canımız”* [4, II, s. 276]

Aşağıdakı beytdə Nəsimi ərəb əlifbasının 28, fars əlifbasının 32 hərfi və müqəttəat hərflərini 4 rəqəmi ilə nəsimisayağı ifadəsini bir neçə riyazi modellərdə verir:

*“Taliba, əvvəl qədəm üç dörd gərək*
*Dördü dörddür, dördünə üç dörd gərək”* [4, II, s. 285]

Zənnimizcə, bu riyazi modellər belə şərh olunmalıdır:

1) *Üç dörd* – 3×4=12; 2) *dördü dörddür* – 4×4=16.

Nəticə olaraq: 12+16=28 ərəb əlfbasındakı hərflərin sayı, 28 müqəddəs kəlam;

3) *dördü dörddür, dördünə üç dörd* – 4×4+(4+3×4)=32 fars əlifbasındakı hərflərin sayı, hürufiliyin 32 müqəddəs kəlamı;

*Səksən dörd* – hərf və nöqtə toplamı 84 olan müqəttəat hərflər.

*“Əqrə-əl-Qur’an əla hərfi ki var,*
*Yar üzündə dəxi səksən dörd gərək”* [4, II, s. 285]

*Bistü yek* – farsca 21 deməkdir. *“Fəzlullah “Cavidannamə” əsərində müqəttəat hərfləri sinifləndirmişdir. Cavidinin şərhinə görə, həmin hərflərin 2 hərfdən ibarət əczası olanları 21 ədəddir: ( ح ح ح ح ح ط ط ط ط ي ي ه ه ر ر ر ر ر ر ح ح). Bu 21 hərf Həvvanın üzündəki 21 xətt qarşılığındadır. Fatiha surəsi 21 müxtəlif hərfdən ibarətdir, hansı ki, Həvvanın 21 xətti ilə eynidir və Fatihatül Kitabın özüdür”* [5, s. 218].

*“Var üzündə bistü yek hərfi-qədim”* [4, II, s. 292]

*Bistü həşt* – ərəb əlifbasının 28 hərfi. *“Hürufilər hər şeyin əsasını 28 ərəb və 32 fars rəqəmlərindən, həmin rəqəmlərin rəmzi mə'nalarından və mahiyyətindən ibarət hesab edirdilər. Onların fikrincə, dünyanın yaranmasını, insanın “xəlq olunması” və xilqəti, sirlərin aşkarlanması və s. məhz bu hərf və rəqəmlərlə bağlıdır”* [6, s. 181].

*“Dörd kitabın mə’nisi, şərhi bu bistü həştdir”* [4, II, s. 165]

İslam ənənəsində “dörd kitab” deyildikdə aşağıdakı səmavi kitablar nəzərdə tutulur: Tövrat, Zəbur, İncil, Qurani-Kərim. Bu dörd kitab – ilahi hikmətin müxtəlif dövrlərdə insanlara çatdırılmış formalarıdır. Lakin Nəsimi göstərir ki, onların bütün gizli mənası, sirri və təfsiri — bu 28 ərəb hərfində toplanmışdır. Bu 28 hərf isə həm Qurani-Kərimin zahiri-batini strukturu, həm də insanın simvolik mahiyyətidir.

*Yeddi/yedi* rəqəmi çoxqatlı rəmzi semantikaya malikdir: Sufi mənada: “7” — batini səyri-sülukun mərhələləri (səbr, təqva, yoxsulluq, fənə və s.); Qurani və kozmik rəmz: *yeddi qat göy, yeddi torpaq, yeddi cəhənnəm qapısı;* İnsan rəmzi: hürufi doktrinada insanda 7 əsas üzv və ya sirr daşıyan mərkəz var.

*“Gizlü adəmdə əyan oldu yedi*
*Dörd yedi bir gəz nədən oldu yedi?”* [4, II, s. 299]

*Yedi/yeddi/həft.* Nəsimi 7 rəqəmini bir neçə kontekstdə bəzən farsca qarşılığı olan *həft* leksik vahidi ilə əvəzləyərək işlədir: *yedi anə (*yeddi səyyarə – Günəş, Ay, Merkuri, Mars, Venera, Saturn və Yupiter*), yeddi iqlim/ iqlimi-həft (qədim coğrafiya təsnifatına görə 7 bölgə və ya yeddi irq insanların yaşadığı ərazilər), yeddi qapı (cəhənnəmin 7 qapısı), yedi göy (7 fələk), yedi qat yer (yerin 7 qatı), yedi damu (7 cəhənnəm), yeddi müshəf (Fatihə surəsinin yeddi ayəsi).* Hürufi görüşlərə görə, insanın üzündə olan yeddi xətt – iki qaş, dörd kirpik, bir

saç *"7 göy qatlarına qarşılıqdır. Üzündəki 7 dəlik də 7 ulduza (səyyarə) və ya yer və göyün 7 təbəqəsinə, dünyadakı 7 dənizə qarşılıq gəlir"* [5, s. 266].

*"Ey qaşınla kirpigin, zülfün yedi*
*Ol yedi kim, şeytan anı bilmədi"* [4, II, s. 133]

*Doquz/doqquz/nöh* – Nəsiminin şeirlərində 9 fələk mənasında işlənir. Şair farsca *nöh* variantından da istifadə edir.

*"Doquz atə, yedi anə, dörd dayədən ver xəbər"* [7, s. 50]. Burada 4 dayə od, su, yel, torpaq təbiət ünsürləridir.

*On dörd, on dört* – Quranda 29 surənin başında gələn 14 müqəttəət hərf: ا، ل، ر، ك، ه ، ى، ن ،ق ،م ،ح ،س ، ط ،ص ،ع. "Allah" kəlməsində 14 hərf vardır. 14 müqəttəə hərf ilə birlikdə 28 olur. Yəni Adəmin üzündəki hərflərin sayı qədər." [6, s. 66].

*"Şəha, çün surətin Fürqanımızdır,*
*Ol on dörd xət bizim Qur'anımızdır"* [4, II, s. 249].

*"On iki"* ədədinin çoxqatlı mənalandırılması. Nəsimi poeziyasında "on iki" ədədi müxtəlif kontekstlərdə işlənir və aşağıdakı semantik funksiyalara malikdir:

1. Ayların sayı olaraq "on iki". Ən sadə və konkret mənada "on iki" ədədi ilin on iki ayını ifadə edir. Bu mənada ədəd zamanın strukturunu, təbiət hadisələrinin ritmini və insan həyatındakı fəsli dövranı təmsil edir.

2. On iki bürc. Nəsimi aşağıdakı misrada bürclər sistemini poetik sual formasında təqdim edir:

"On iki bürcü kəvakib cayı, mə'vası nədir?"

Burada "on iki" ədədi astrologiya ilə bağlı olub, kainatın quruluşunu və insan taleyinin səmavi nizamla əlaqəsini əks etdirir. Bürclər həm də insandakı keyfiyyətlərin və taliyin ilahi mənbələrlə yönləndirilməsini simvollaşdırır.

3. Musiqi sistemindəki on iki müğam şöbəsi

Şərq musiqisində mövcud olan "Uşşaq", "Nəva", "Busəlik", "Rast", "Əraq", "İsfahan", "Zirəfkənd", "Büzürk", "Zəngulə", "Rəhavi", "Hüseyni", "Hicaz" kimi on iki əsas müğam şöbəsi həm kosmik harmoniyanı, həm də ilahi düzənin melodik ifadəsini ehtiva edir. Bu musiqi sistemindəki on iki şöbə, hürufi təfəkkürdəki səs-kainat əlaqəsini ifadə edir [8, s.19].

4. Quran ayəsi kimi "on iki ayət"

"Yaşıl lövh üstünə Həqdən yazılmış on iki ayət" [2, I, s. 84]

Bu beytdə qeyd olunan "on iki ayət", Nəcm surəsinin 12-ci ayəsinə istinad ola bilər. Bu ayədə Məhəmməd peyğəmbərin merac təcrübəsinə şübhə ilə yanaşanlara ilahi xəbərdarlıq edilir. Nəsimi bu ayəni batini təfəkkürlə şərh edərək "yaşıl lövh" (ləvhi-məhfuz) üzərində yazılmış ilahi sirlərin rəmzi kimi təqdim edir.

5. On iki imam. Nəsimi "on iki" ədədi şiəlikdəki on iki imam sisteminə işarə olaraq işlədir: "Həm bu on iki imamın hörməti-Həqqi üçün" [4, II, s. 176]. Nəsimi bu imamların hər birini ilahi nurun daşıyıcısı və mənəvi rəhbər kimi təqdim edir. Bu anlayış onun batini təlimlə şiə irfanını birləşdirməsinin göstəricisidir.

6. "On iki xas" – hurufi hərf təlimində.

"Ey ki yetmiş yeddi hərfin on iki xası nədir?" [4, II, s. 151]

Bu misrada "on iki xas" ifadəsi ədədi hərflərin metafizik funksiyaları, sirrli dərəcələri və kosmik qarşılıqları ilə əlaqələndirilir. Hurufilikdə hərflərə ontoloji məna verildiyindən, "on iki xas" onların batini dəyərlərinin simvoludur. "Yetmiş iki" ədədi də hürufi təlimin əsas sütunlarından birini təşkil edir. Fəzlullah Nəimi və onun davamçıları bu ədədə xüsusi rəmzi məna verirlər. Hurufi qaydalara görə, ərəb əlifbasında görünən 28 əsas hərf, öz fonetik variantları və səs-fonem dəyərləri ilə 72 formaya qədər genişlənir: *"Ərəb əlifbasındakı 28 hərfin əczasında olan 72 hərf. Yəni 28 hərfin adı"* [5, s. 219].

Burada "yetmiş iki" ədədinin ifadə etdiyi anlayış – hurufi sistemdəki batini çoxluqdur. Hər bir hərf zahiri forma ilə yanaşı batini mənanı, səs və enerji təzahürünü ifadə edir. Bu da insanın və kainatın strukturu ilə hərflər arasında bir irfani əlaqənin varlığını ortaya qoyur. Bəzi hurufi mətnlərdə "72 üzv" insanın üzündəki cizgilərlə əlaqələndirilir. Beləliklə, "yetmiş iki", həm hərfin, həm də insanın batini quruluşunun simvolu olaraq çıxış edir. Hurufiliyin əsas prinsiplərindən biri olan "İnsan = Kəlam = Həqq" düsturu bu kontekstdə daha da aydınlaşır.

Nəsimi poeziyasında "on iki" və "yetmiş iki" ədədləri təkcə riyazi göstəricilər deyil, ontoloji, kosmik, dini və mistik strukturların semantik

daşıyıcılarıdır. “On iki” ədədi həm illik zaman dövrünü, həm bürcləri, həm Quran ayələrini, həm imamları, həm də hurufi xassələri özündə birləşdirir. “Yetmiş iki” isə hurufi təlimin fonetik əsaslarını, ərəb əlifbasının batini izahını və insan sifətindəki sirrli cəhətləri açıqlayan semantik vahid kimi çıxış edir. Bu ədədlərin çoxqatlılığı, Nəsiminin poetikasında saylar vasitəsilə batini həqiqətlərin ifadəsi üçün xüsusi sistem qurduğunu göstərir. Beləliklə, Nəsimi poeziyası yalnız hürufi simvolların deyil, həm də ədədlərin ezoterik dilə çevrildiyi bir metafizik kainat olaraq dəyərləndirilə bilər.

*On altı xətt* – hürufilikdə *“ikiyə ayrılmış saçın birinin üzərində bismillah (بسم الله الرحمن الرحيم) yazılması Adəmin üzünün bir tərəfindəki 16 xətti təkrarlayır. Çünki bismillah 10 cür hərflə yazılır: ب س م ا ل ه ر ح ن ي. Bunların 4-də nöqtə vardır, cəmi 14 edir. Onların əczasında (hərflərin adlarındakı hərflər) digərlərindən fərqli iki yeni hərf vardır: əlifdə (اليف) fə (ف) və nunda (نون) vav 14 .(و) hərf, nöqtələrin sayı və bu 2 hərfin cəmi 16 edir* [5, s. 372].

*“Rüxün lövhündəki on altı xəttin,*
*Ələl-ərş üstüva rəhmanımızdır”* [2, I, s. 249]

*On səkiz* – hürufilikdə *“18 hərf 18 min aləmə işarədir. Allah (الله) sözünün inbisatındakı hərf və nöqtələrin cəmi (اليف لام لام هى) də 18-dir”* [5, s. 551].

*“Yeddi olmuşdur bu şəhrin qapusu*
*On səkiz olmuş təmamət yapusu”* [4, II, s. 323]

*On səkiz min aləm* – Quranın Fatihə surəsindən iqtibas edilmiş “Rəbbi-l-aləmin” (aləmlərin Rəbbi) tərkibi aləmlərin say çoxluğunu bildirmək məqsədilə məcaz rəqəm olaraq işlənmişdir. Əski inanca görə, on səkkiz min aləmdən biri bu dünyadır. Bu dünya kimi on yeddi min doqquz yüz doxsan doqquz aləm daha vardır ki, bunlara fələk deyilir. İbnul-Ərəbi və onun ardıcıllarına görə kainat Allahın ad və sifətlərinin bir təzahürüdür və beş mərtəbədə meydana gəlmiştir. Topdan on səkkiz, parça-parça on səkkiz min olan aləm bu beş mərtəbə içərisindədir. Bu mərtəbələrə həzarati-xəmsə deyilir. “Nücum elminə görə, bütöv varlıq aləmi on səkkiz təmələ əsaslanır:

a) Doqquz fələk = 9
b) Hava kürəsi = 1
c) Su kürəsi = 1
d) Ataş kürəsi = 1
e) Torpaq kürəsi = 1
f) Cansızlar = 1
g) Bitkilər = 1
h) Heyvanlar = 1
i) insan = 1
j) insani-kamil = 1 “(EC)

*“On səkiz min aləmin sirrin bilən*
*Kə’bəteyni atacaq se şeş gəlir”* [4, II, s. 24]

*On yeddi* – 16-dan sonrakı ədəd. Aşağıdakı beytdə: bir – Allah; yeddi – səyyarə; üç – Allah, Məhəmməd, Əli üçlüyü (B a x Üç.); beş – Məhəmməd peyğəmbərin ailə üzvlərinin sayı; bir – Adəm. 1+7+3+5+1=17.

*“Evi bir, bacası yeddi, babı üç*
*Əhli-beyt ilə özü on yeddidir”* [4, II, s. 273]

*Əlli* – hürufilikdə *“nun hərfinin əbcədi 50-dir. Quranın 28 hərfi və bu hərflərin 22 nöqtəsinin cəmi 50 edir”* [9, s. 203].

*“Əlli olur hərfü nüktə yeddimiz”* [4, II, s. 276]

*Əlli tənab* - 50 ədəd çadır ipi. Hürufilər xeymə ilə Adəmin vücudu arasında bir bənzərlik qururlar: *“Xeymənin bir tərəfindəki 50 ip Adəmin 28 oynaqdan ibarət sağ əl və ayağına işarətdir ki, bu da kəlimeyi-Məhəmmədin (ərəb əlifbasındakı hərflərin – X.Heydərova) sayına bərabərdir. Hz. Məhəmmədin 28 hərfinin 22 nöqtəsi ilə cəmi 50-dir. Xeymənin digər tərəfindəki 50 ip də eyni şəkildə Adəmin sol əl və ayağı müqabilindədir”* [5, s. 345].

*“Xeymeyi-miad imiş gördüm vücudum sərbəsər,*
*Kafü nundan iki yana hər tərəf əlli tənab”* [2, I, s. 21]

*Sittun* ərəb dilində altmış deməkdir. Nəsiminin dilində riyazi rəqəm kimi istifadə olunur: *“Bildilər kim, tuləhu sittun zər’ən fissəma”* [4, II, s. 215]

*Yetmiş iki* – *“ərəb əlifbasındakı 28 hərfin əczasında olan 72 hərf. Yəni 28 hərfin adı”* [5, s. 219].

*“Qamətin səksən səkkiz edər bəyan,*
*Yetmiş iki bildirər nitqü sözün”* [4, II, s. 282]

*Yetmiş üç* – *“Məhəmməd peyğəmbərin bir hədisi-şərifində müsəlmanların 73 firqəyə ayrılacağı, bunlardan biri xaric digərlərinin cəhənəmə gedəcəyi bildirilmişdir. Fəzlullah ümmətin 73 firqəyə ayrılmasını həzrəti Məhəmmədin nitqi ilə əlaqələndirir və göstərir*

*ki, ərəb əlifbasındakı 28 hərfin əczasındakı 72 hərf laməliflə birlikdə 73 olur. Bu 73 hərf müsəlmanların ayrılacağı 73 firqə qarşılığındadır"* [5, s. 44].

*"Otuz iki mənzili var ilinin*
*Yetmiş üç dürlü məqamı yolunun"* [4, II, s. 320]

*Üç yüz altmış* – Fələyin 360 dərəcəsi: 12 bürcün hər biri 30 dərəcədir, topladıqda 360 dərəcə alınır. *"Günəşin mənzili 360 dərəcəyə bərabərdir"* [5, s. 540). Bu izahı Nəsiminin aşağıdakı beytində görəbilirik:

*"Üç yüz altmış gündürür dövranımız"* [4, II, s. 276]

Bu yanaşmadan çıxış edən Nəsimi bir beytdə 3 ədəd istifadə edir: 366, 48 və 77.

*"Üç yüz altmış altı mənzil, qırx səkiz yerdə mizan,*
*Ey ki yetmiş yeddi hərfin on iki xası nədir?"* [4, II, s. 151]

*Üç yüz altmış altı mənzil* – İnsan vücudundakı 360 sümük və 6 cəhətin cəmidir. Günəşin mənzili 360 dərəcəyə bərabərdir. Amma hürufi yanaşmaya görə, *"Günəşin bir illik dövrü ərzində insan vücudu anasının bətnində şəkil alır. Ayrıca "qarn"* (ər. "zaman dövrü" قرن) *sözünün əbcədi 350-dir. Əczasında 8 hərf və 7 nöqtə (قاف ري نون) ortaya çıxır. "Qarn" sözünün əczasında aşkar olan hərf və nöqtələr, əbcədi və heyəti məcmusunun cəmi 366-a bərabərdir"* [4, s. 547].

48 ədədi hürufilərə görə bu şəkildə hasil olur: *"2 gözdə 2 bəyazlıq + 4 ədəd (2 göz bəbəyi və 2 göz giləsi) siyahlık vardır. Bu 6 hissənin hər biri 4 ünsürdən əməmlə gəldiyindən cəmi 24 saat qarşılığındadır. 5 üzv və sadəcə gözlər üzərindən aparılan hesabda eldə edilən 2 ədəd 24 xətt/əlamətin cəmi 48-dir. İstiva xətti keçtikdən sonra zahir olan 6 dəlik 6-cı məhəlliylə birlikdə 12 edər ki, 4 ünsürlə bir-birinə vurulduqda 48-ə bərabər olur"* [4, s. 446]. İkinci misrada 77 ədədinin izahı aşağıdakı şəkildədir: *"3 hərfli müqəttəat hərflərin əczalarında (üzərlərində və adlarındakı hərflərin üzərində olan nöqtələr – X.Heydərova) və görünən nöqtələrin (hərflərin zahir və batinindəki nöqtələr) cəmi 77 ədəddir. Gündə 5 dəfə oxunan azanın cümlələrinin cəmi də 77-dir"* [5, s. 220, 436].

*Yetmiş yeddi hərf – "77 müqəttəat hərf. 3 hərfli müqəttəat hərflərin əczalarında* (üzərlərində və adlarındakı hərflərin üzərində olan nöqtələr – X.Heydərova) *və görünən nöqtələrin (hərflərin zahir və batinindəki nöqtələr) cəmi 77 ədəddir. Gündə 5 dəfə oxunan azanın cümlələrinin cəmi də 77-dir"* [5, s. 220, 436]. "Cəhənnəm" sözü Quranın yetmiş yeddi ayəsində işlənir.

Nəsimi yaradıcılığı rəqəmlər və ədədlər vasitəsilə yalnız poetik bir estetik yaratmır, həm də oxucunu kosmik və metafizik mənaların qatlarına yönəldir. Şairin istifadə etdiyi ədədlər – 4, 6, 12, 18, 28, 32, 48, 84, 360, 366 həm Quran ayələri, həm sufi təlimi, həm də hürufi doktrinanın simvolik sisteminə bağlanır. Onların hər biri insan vücudu, kainatın yaradılış mərhələləri və ilahi hikmətin təcəllası ilə bağlı məna qatlarını ehtiva edir. Bu araşdırma göstərir ki, Nəsimi poeziyasında rəqəmlər təbii ölçü vahidi deyil, ilahi həqiqətlərin rəmzi daşıyıcılarıdır və onun poetikasının dərkində mühüm açar rolu oynayır. Beləliklə, Nəsimi yalnız sufi və hürufi düşüncənin təmsilçisi deyil, həm də ilahi rəmzlərin dilini məharətlə poetik sistemə çevirən irfan şairidir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Kitabi-Dədə Qorqud. (). Əsil və sadələşdirilmiş mətnlər. – Bakı: – Öndər, 2004. – 376 s.
2. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. I cild. / tərt.ed. Həmid Araslı. Bakı: "Lider nəşriyyat", 2004. 336 səh.
3. Nəcəfzadə, A. Çalğı alətlərinin izahlı lüğəti (düzəliş və əlavələr edilmiş ikinci nəşr). – Bakı: – 2004, – 224 səh.
4. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. II cild. / tərt.ed. Həmid Araslı. Bakı: "Lider nəşriyyat", 2004, 376 səh.
5. Usluer, F. Hurufilik. ilk Elden Kaynaklarla Doğuşundan itibaren. İstanbul: Kabalcı Yayınevi, 2009, – 626 səh.
6. Məhəmmədzadə, Hüseyn Sadıq (1971). İmadəddin Nəsimi. Türkcə divanı. – Təbriz: – 713 s. حسين محمدزاده صديق. سيد عمادالدين نسيمى تورکجه ديوانى. انتشارات اختر تبريز- ١٣٨٧
7. Qəhrəmanov, C. Nəsimi divanının leksikası. – Bakı: – Elm, – 1970. – 566 s.

8. Hacıbəyov, Ü. Azərbaycan xalq musiqisinin əsasları. – Bakı, – Yazıçı, – 1985. – 151 səh.

9. Mövlanə Seyid İmadəddin Nəsimi Əbülfəzl. İraq divanı. Tərtib edəni: Paşayev, Qəzənfər. Redaktor, lüğət və şərhlər – Məmmədəli Əsgərov. Bakı: PDF, 1987, 240 səh.

**Хадиджа ГЕЙДАРОВА**

## МЕТАФИЗИЧЕСКИЙ И КОСМИЧЕСКИЙ ЯЗЫК ЧИСЕЛ В ПОЭЗИИ НАСИМИ

**Резюме:**

В данной статье рассматривается метафизическая и космическая символика чисел в поэзии Имадеддина Насими с точки зрения хуруфизма, суфизма и классической исламской науки. Автор показывает, что числа в поэтической системе Насими выполняют не только количественную, но и глубоко символическую, эзотерическую функцию. Анализируются такие числа, как 4, 6, 7, 12, 18, 28, 32, 48, 84, 360 и 366, каждое из которых соотнесено с определёнными уровнями бытия, космогонией, телесной структурой человека, а также системой божественного откровения. Особое внимание уделяется числам 28 и 32 как количеству арабских и персидских букв, лежащих в основе хуруфийской доктрины, а также числу 18, связанному с концепцией «18 тысяч миров». Символика чисел соотносится с астрономией (движение Солнца и зодиак), анатомией (линии на лице, строение тела), мистической географией (семь климатов) и музыкой (6 авазов, 12 ладов, 24 ответвления), что подчёркивает синкретизм поэтического мышления Насими. Статья подчёркивает, что Насими строит уникальную поэтическую семиотику, в которой числа выступают как ключи к познанию истины. Его поэзия отражает не только эстетические, но и глубокие космические и духовные смыслы, делая его не только поэтом, но и носителем тайного эзотерического знания.

**Ключевые слова:** Насими, числа, хуруфизм, эзотерика, поэтический символизм

**Khadija HEYDAROVA**

## THE METAPHYSİCAL AND COSMİC LANGUAGE OF NUMBERS İN NASİMİ'S POETRY

**Abstract:**

This article investigates the metaphysical and cosmic language of numbers in the poetry of Imadaddin Nasimi, focusing on their symbolic and esoteric functions within the frameworks of Hurufism, Sufism, and classical Islamic sciences. The study demonstrates that numbers in Nasimi’s poetic system go beyond mathematical indicators, operating as complex metaphysical symbols tied to cosmic creation, human anatomy, spiritual hierarchy, and divine revelation. Key numbers such as 4, 6, 7, 12, 18, 28, 32, 48, 84, 360, and 366 are examined in relation to Qur’anic references, symbolic cosmology, and the Hurufi doctrine. For instance, the 28 Arabic and 32 Persian letters represent the building blocks of divine language; the number 18 denotes the 18,000 worlds; 360 marks the solar cycle; 7 and 12 correspond to mystical heavens and musical modes. The article also analyzes how these numerical symbols correspond to mystical geography (seven climates), musical structures (6 melodies, 12 tones, 24 branches), and the anatomy of the Perfect Human. Nasimi transforms numerical values into a sacred semiotic code, linking his poetic imagination with divine wisdom. His sophisticated use of numbers reflects a multilayered vision in which the spiritual, cosmic, and linguistic realms are intricately interwoven. The study concludes that Nasimi’s poetry encodes a metaphysical system wherein numbers function not merely as decorative elements, but as ontological keys to divine reality and esoteric meaning.

**Keywords:** Nasimi, numbers, Hurufism, esotericism, poetic symbolism
**Daxil olub: 02.10.2023**